# I fəsil

Bir qış günü idi. Briersvil-park yağışdan islanmışdı. Güclü yağış yağmış, bağın yaşıl örtüyünü insafsızcasına döyəcləmişdi. Hər damla yüzlərlə hissəyə bölünüb yenidən ağacları, bitkiləri "döyürdü". İki qurbağa hovuzun ortasındakı daş kupidonun ayaqları altında gizlənmişdi, gölün içindəki narıncı balıq isə suyun lilli qatına baş vururdu.

AH2-nin sifətindən su damcılayırdı. Onun qara, isti, su keçirməyən şalvarı və pencəyi palçığa bulaşmışdı, çünki o, lamalar olan sahədən malikanəyə qədər sürünə-sürünə gəlmişdi. İndi daha yaxşı eşitmək üçün balaklavasını[1] çıxara bilərdi. Hündür divarın o biri tərəfindən uşaqların səs-küyü, qışqırığı eşidilir, it hürürdü.

Kərpic divarın ortasında ağır qapı vardı, o qapıdan istifadə etməyə cürət etmədi. Xəlvətcə ətrafa boylandı ki, görsün, onu izləyən var, ya yox. Daha sonra isə əllərini divarın dibindəki qocaman alma ağacının çılpaq budaqlarına qoydu və bir əsgər cəldliyi ilə ağacın başına dırmaşdı.

---

[1] Balaklava (ingiliscə balaclava, Balaklava şəhərinin adından götürülüb) və ya xizək maskası – baş, alın və üzü örtən, gözlər, ağız üçün kiçik bir yarığı olan baş geyimi

İzlədiyi qız barının o biri tərəfində idi. AH2 buna tam əmin idi. Molli Mun adlı o qəribə qız hovuzun qırağında iki oğlanla oynayırdı. O güman etdi ki, oğlanlar təxminən Molli ilə eyni yaşdadır – 11 yaşında. Oğlanlardan biri qara idi, AH2 onu görən kimi tanıdı – Molli ilə birlikdə reklama çəkilmişdilər. Oğlanın yanında başqa bir oğlan da vardı, hiss olunurdu ki, o, yadplanetli qızın – Mollinin əkiz tayıdır. Belə ki, onun da saçı qızın saçı kimi açıq-qəhvəyi, qıvrım idi, burnu kartof formasındaydı və bir-birinə yaxın yaşıl gözləri vardı. Görəsən, bu oğlan da  yadplanetli idi?

AH2[1] səksəndi. Sonra isə təəccübdən gözləri bərələ qaldı.

Belə ki, qəflətən hovuzun içindən bir obyekt çıxdı, o güman edirdi ki, bu, batmış, içi hava ilə doldurulmuş qayıqdır. Amma o, fil idi, uşaqların üstünə neçə qallon su püskürtdü, onları islatdı, onlar da hovuzun qırağından aralandılar, onların yanındakı balaca, qara mops hürməyə başladı. Uşaqlar güldülər və sevincək qışqırdılar, fil isə yenidən suya girdi.

AH2 başını buladı və heyrətdən çaşıb qaldı, daha sonra isə yenidən öz işinə davam etdi. Pencəyinin döş cibinin zəncirbəndini açdı, balaca tapança çıxartdı, onu divarın üstünə qoydu, onun nişangahından ətrafa göz gəzdirdi. Molli Munun başını və çiyinlərini gördü. Mollinin yaş saçı yana daranmışdı, qəşəng boynu görünürdü. AH2 dişlərini qıcadı. Kaş Molli Mun hoppanıb-düşməyə son qoyaydı və ona oxşayan oğlan da kənara çəkiləydi. AH2 səbirsizliklə gözlədi, nəhayət, Mollinin boynu tapançanın qırmızı hədəf dairəsində göründü. O, filin sudan çıxmağını gözlədi. Fildən

[1] AH2 – Alien Hunter 2 – Yadplanetli ovçusu, yadplanetlinin izinə düşən. 2 onun nömrəsidir. Onun rəhbəri isə AH1-dir.

istifadə etmək istəyirdi, o, xortumuyla uşaqlara su püskürtdüyü anda atəş açmaq istəyirdi.

Fil yenə də sudan çıxdı və uşaqlara su püskürtdü. AH2 məhz həmin məqamda tətiyi çəkdi. İstəyinə nail oldu: bir saniyə sonra su Molli Munun üstünə dağıldı. Hamı çığırdı, həyəcanlı səs-küydə Molli Munun qışqırığı eşidilməz oldu. O, əlini boynuna qoydu.

– Uf! Amrit! – o gileyləndi. – Sanki suyun içində daş vardı.

– Əla! – AH2 mızıldadı, sakitcə barının üstündən düşdü və lamalar olan yerə tərəf qaçdı. O, sürətlə qaçır və heyvan formalı kolları arxada qoyurdu. Nəhayət, o, ağaclığın qurtaracağına çatdı, maşınını park etdiyi yerə. Maşının qapısını açıb sürücü yerində oturandan sonra balaklavasını və pencəyini çıxartdı, o biri oturacaqdakı qəhvəyi bağlamanı götürdü.

Əllərini quruladı, bağlamanın içindəki radioya oxşar qırmızı qutunu açdı, onun antenasını dartıb çıxardı. Qurğunu işə saldı, onu Briersvil-park istiqamətində tutdu – parkın bağları və hovuz istiqamətində. Qurğu siqnal çalanda AH2 rahatlaşdı.

– Səni tutdum, yadplanetli Molli, – o gülümsədi. Sonra mobil telefonunu götürüb özünün rəhbərinə – AH1-ə mesaj yazdı:

"MİSSİYA YERİNƏ YETİRİLDİ".

# II fəsil

Molli Mun və Mikki Mun zümrüd kimi yaşıl idman maşınında idilər, maşın tədricən sürəti artırırdı. Hava buludlu idi. Molli özünü ev heyvanı kimi hiss edirdi, çünki o, iki qabaq oturacağın arxasındakı dar yerə pərçim olmuşdu. Onun əkiz qardaşı Mikki sərnişin oturacağında, onların təzə müəllimi miss Hanro isə sükan arxasında idi.

Miss Hanronun çox məftunedici görünüşü vardı. Molli düşünürdü ki, əslində müəllim belə olmalı deyil. Onun saçı peroksid sarısı rəngində idi, qəribə formada buruldduğundan başının bir tərəfində "pilləkən" kimi görünürdü. Sarımtıl-qəhvəyi gözləri iri, kirpikləri uzun idi. Onu ötməyə çalışan hər bir maşını diqqətlə izləyirdi. Ağ dərisinin şəffaf gözəlliyi vardı. Yanaqları yüngülvari qırmızı idi. Paltarları da müəllimə yaraşan deyildi.

Miss Hanro qaymaq rəngli kostyum geyinmişdi. Pencəyin altından isə ipək, qısa köynək. Qırmızı laklı barmaqlarından birinə yekə qızıl üzük taxmışdı, zümrüd qaşlı. Sükanı sol əllə idarə edirdi, sağ əlində qızıl qəpik tutmuşdu. Maşını sürdükcə o bu qəpiyi barmaqları arasında çevirirdi, qəpik onun oynaqları arasında

diyirlənən təkərə oxşayırdı. Hər dəfə hansısa maşın onu ötəndə o, qızıl qəpiyi barmaqları arasında çevirib gah “Baş tərəf”, gah da “arxa tərəf” deyirdi. Əgər qəpiyin istədiyi tərəfi ovcuna düşsəydi, o, sürəti artırar, beləcə o biri maşın ona yol verərdi. O isə maşını daha sürətlə, yəni saatda yüz mil sürər, onu ötmək istəyən maşın onlardan çox geri qalardı.

Molli bərk-bərk Mikkinin oturacağının başından yapışmışdı. Miss Hanronun maşını sürətlə sürməyi, eləcə də onun qızılgül qoxulu ətri Mollinin ürəyini bulandırırdı. Allaha yalvarırdı ki, kaş qusmayaydı. O düşünürdü ki, əgər o, miss Hanronun maşınının dəri oturacaqlarını qusuntuyla bulaşdırsa, hamısı dilxor olacaq.

– Maşın sürməyin maraqlı yolu, – miss Hanro qəpiyi yenə də barmaqları arasında çevirib onu ötməyə çalışan maşını geridə qoyanda Mikki başını pazl kitabından yuxarı qaldırıb yarızarafatla dedi.

– Belə edəndə əhvalım yaxşı olur, – miss Hanro cavab verdi. – Mən şansımı sınamaq istəyirəm. Bəzən mənim ötmək şansım əlli-əlliyə olur, mən hansı tərəfə istəyirəmsə, bu qəpik də o tərəfə düşür. Buna görə də mən ötürəm! Sanki bu qəpik də Londona mümkün qədər tez çatmaq istəyir!

Beləcə onlar yollarına davam etdilər. Sanki yarışda idilər. Bəzən hansısa maşının sürücüsü siqnal verir, başqa maşının sürücüsü isə yumruğunu düyünləyirdi. Molli qarşıdakı düppədüz yoldan qorxurdu, bilirdi ki, gec və ya tez qusacaq. Gözlərini səmadan çəkmirdi, pişik formalı buludun əjdaha formalı buluda döndüyünü müşahidə etdi, ürəkbulanması keçənə qədər gözlə-

rini səmadan çəkmədi. Arabir miss Hanro ilə Mikki söhbət edirdilər. Məsələn, belə söhbət:

– Butanoik turşusu. Miss Hanro, bu kərə yağında qaxsımış dadı verən rəngsiz mayenin adı deyil?

Yaxud:

– GİZLİ YER sözü. Miss Hanro, siz də bu sözü belə tələffüz edirsiniz? Bu sözün mənası "əşyaların gizlincə saxlandığı yerdir?"

Mikkinin başı yenidən pazl kitabına qarışanda o, miss Hanronu sanki sınaqdan keçirirdi:

Əbədiliyin başlanğıcı[1],
Zamanın və məkanın sonu.
Hər bir sonun əvvəli
Hər bir yerin sonu.
Mən kiməm?

– Miss Hanro, cavabı deyimmi? Cavab: Ə hərfidir. Yaxşı sualdır, eləmi?

– Üzr istəyirəm, əzizim, mən maşın sürürəm, danışa bilmirəm, – Mikkinin ona sual verməsindən, yaxud nə deməyindən asılı olmayaraq, miss Hanro belə deyirdi. Bundan sonra Mikki ya pazlları həll etməyə davam edir, ya başını geri çevirib Molli ilə söhbət edir, ya da kompasla məsləhətləşib hansı istiqamətdə getdiklərini öyrənirdi.

*

AH2 özünün işıldayan qara maşınıyla – arada məsafə saxlamaqla – onların arxasınca gedirdi. Onun izləmə qurğusu elə qu-

[1] İngiliscə bu sözlər belədir: Eternity, time, space.